# Nə qədər ki, Xeyir və Şər var

**Ötən ilin son günlərində müasir Azəbaycan ədəbiyyatının tanınmış simalarından birinin - dünyanın 52 ölkəsində oxunan, dünya ədəbiyyatında qazandığı uğurlara görə BMT-nin "Şərəf və vicdan", eləcə də Rusiya Federasiyasının "Qızıl payız" müsabiqəsinin S.Yesenin alına ordenləri ilə təltif edilmiş, Böyük Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru, 82 yaşlı yazar Qərib Mehdinin 45-ci kitabı işıq üzü görmüşdür.**



Bu münasibətlə şəhər mərkəzi kitabxanasının kollektivinin təşəbbüsü və təşkilatçılığı ilə ziyalılar, ədəbiyyatsevərlər və şəhər ictimaiyyətinin nümayəndələri kitabxananın oxu zalına toplaşmışdılar.

Oxu zalının görməli bir guşəsində müəllifin çoxsaylı kitablarının sərgisi açılmışdı. Qeyd edək ki, tədbir öncəsi hər bir iştirakçının yaddaşından bu fikirlər oxunurdu: "Ədəbiyyat fədaisi olan yazar Qərib Mehdinin 45 deyil, "46 kitabı var!" 46-cı kitab - "Ötən əsrin səksəninci illərinin əvvəlində "yazılmış" "İlham" ədəbi birliyi paralanmış nar dənələri kimi, öz yetirmələrini ədəbiyyatımızın nəsr və poeziya "laləzarına" səpələnmiş və dəyərli nümayəndələrini çoxdan aləmə tanıtmışdır. Bütün bunları tədbir öncəsi iştirakçıların hər biri yaxşı xatırlayırdı.

Önəmli haldır ki, bu gün Azərbaycan Yazıçılar Birliyinin Gəncə bölməsinə ustad Qərib Mehdinin və onun yaratdığı "İlham" ədəbi Birliyinin məzunu, Prezident mükafatçısı, şair Xəzangül xanım rəhbərlik edir. Tədbirin ilk anlarında Xəzangül xanım öz ustadını təbrik edərək ona ömrünün 9-cu onluğunda yeni-yeni yaradıcılıq uğurları diləmiş və rəmzi hədiyyələrini qocaman nasirə təqdim etmişdi. Hər iki yazarın səmimi ürək sözləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Tədbirin aparıcısı, şair Saleh Qurbanov Qərib Mehdi yaradıcılığı barədə səmimi sözlərlə yadasalmalar etdi. Sonra GDU-nun dosenti, tarixçi ədəbiyyatsevər Rəşid Məhərrəmov, dosent şair Qivami Qazıyev, əməkdar jurnalist-nasir Nüşabə Əsəd Məmmədli, dosent-şair Sahib İbrahimli, Prezident mükafatçısı, şair Aydın Murovdağlı, Prezident mükafatçısı, nasir Fazil Sənan, yazıçı-jurnalist Surxay Səlimov, Prezident mükafatçısı, nasir-dramaturq, I qrup əlil Ofelya Mədətqızı, nasir-dramaturq Zaur həkim, Daşkəsən rayonundan gəlmiş, şair Elmar Vüqarlının çıxışları qocaman yazar Qərib Mehdi yaradıcılığının ayrı-ayrı keyfiyyətlərindən söz açdı, çoxsaylı kitablar - roman, povest, hekayə və esselər müəllifinə səmimi ürək sözlərini söyləyib, ona yeni-yeni yaradıcılıq uğurları dilədilər.

Daha sonra tanınmış nasir-jurnalist İradə Aytel, Qərib Mehdinin əksər kitablarının redaktoru, iş yoldaşı, jurnalist Firəngiz İdrisqızı, qocaman şair, "Gəncənin dastanı" ensiklopedik kitabın müəllifi Mikayıl Yanar, jurnalist Füzuli Rüzigar çıxış edərək öz ürək sözlərini müəllifə çatdırdılar. Füzuli Rüzigar öz çıxışında ötən əsrin altmışıncı illərini xatırlayaraq Qərib Mehdinin Gəncə ədəbi mühitində tutduğu mövqedən və "İlham" ədəbi birliyinin uğurlarından söhbət açaraq qeyd etdi ki, Qərib Mehdi və "İlham" ədəbi birliyi 40 ildən artıqdır ki, Gəncə ədəbi mühitində, eləcə də Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynayır. Qeyd olundu ki, müəllifin sonuncu kitabında yer alan 4 povest, 16 hekayə, bir neçə esse və digər yazılarda müxtəlif mövzulara toxunulmuş, Azərbaycan qadınının ləyaqətinin böyüklüyü, xeyir və şər qüvvələrinin mübarizəsi müxtəlif yazılarda özünün həllini tapmışdır.




Tədbirdə daha sonra şair Almaz Yusifqızı, şair Pəhləvan Əfəndi, müəllifin oğlu Rövşən Mehdiyev, yazıçı, Prezident mükafatçısı Ümbülbanu çıxış edərək qərib Mehdi yaradıcılığının ayrı-ayrı keyfiyyətlərindən söz açdılar.

Mərkəzi kitabxananın direktoru, əməkdar mədəniyyət işçisi Elmira Əliyeva öz çıxışında ötən ilin son günlərində keçirilən tədbirin maraqlı anlarını diqqətə çatdırıb tədbir iştirakçılarına minnətdarlıq etdi və Qərib Mehdiyə yeni-yeni yaradıcılıq uğurları dilədi.

Tədbirin sonunda yazıçı-dramaturq Qərib Mehdiyə söz verildi. O, tədbir iştirakçılarına və təşkilatçılara səmimi təşəkkür edərək, hər birinə minnətdarlığını bildirdi. Tanınmış nasir sonda onu da xatırlatdı ki, "İlham" ədəbi birliyinin yetirməsi, "Vektor Nəşrlər Evi"nin rəhbəri, professor Elçin İsgəndərzadə son illər onun kitablarının işıq üzü görməsində xeyirxah işlər görmüşdü. Onun təmənnasız xidmətləri həmişə müəllif tərəfindən ehtiramla yad edilir.

**Beləcə, Gəncə şəhər ədəbi mühitinin qocaman yazarı Qərib Mehdinin "Savaş"ı ötən ilin son günlərində yaddaqalan bir hadisəyə çevrildi. Bəli, nə qədər ki, Xeyir və Şər qüvvələr var, kitabdakı yazılar da sevilə, sevilə oxunacaqdı.**

**Füzuli RÜZİGAR**

**Ədalət.- 2019.- 10 yanvar.- S. 8.**